# BƏDƏNIN DƏRI ÖRTÜYÜNÜN KIMYASI HAQQINDA MƏLUMATLARIN ŞAGIRDLƏRƏ ÖYRƏDILMƏSININ ƏHƏMIYYƏTI

**A.M.Tağıyeva**
*AMEA-nın aparıcı elmi işçisi, əməkdar müəllim*

**M.X.Məmmədov**
*AMEA-nın aparıcı elmi işçisi*

**A.B.Mirzəyeva**
*Mingəçevir şəhər, S.Vurğun adına 16 saylı orta məktəbin biologiya müəllimi*

Bədənin təmizliyi təkcə bədənə xoşagələn xarici görünüş vermir, həm də sağlamlığın əsas şərtlərindən biridir. Dərinin çirklənməsi onun zəhərlənməsinə, tüklərin tökülməsinə şərait yaradır. Bunun əsas səbəblərindən biri də ətraf mühitdən düşən bakteriyalardır ki, onlar da çirklə dəridə daha sürətlə inkişaf edir.

Təmizliyi və xoşagələn xarici görünüşü qoruyub saxlamaq üçün bir sıra kimyəvi proseslərdən istifadə olunur. Bu prosesləri düzgün qiymətləndirmək üçün kimyanı bilməklə insan öz sağlamlığına aid doğru seçim edir. Fənlərarası əlaqə məqsədilə əvvəlcə müəllim dəri haqqında şagirdlərin ümumi biologiyada və zoologiyada öyrəndikləri biliklərini yada salır. Bu məlumatlar XI sinifdə kimyanın tədrisində "Mürəkkəb efirlər", "Yağlar", "Sabun və digər yuyucu maddələr" mövzularının tədrisi zamanı şagirdlərə çatdırılır.

Müəllim şagirdlərə aşağıdakı sualı verir:

- Nə üçün qurbağaların dərisinə əl vurduqda sürüşkənlik hiss olunur?

Cavab: Qurbağanın dərisi xüsusi maye ifraz edən vəzilərə malikdir ki, bu vəzlər dərini isladır. Insan dərisində də dərinin elastikliyini saxlamaq üçün piy əmələ gətirən vəzilər var. Çatlamış dodaqlar belə piyin olmamasının xoşagəlməz nəticəsidir.

Dərinin görünən ifrazatının ən çox hissəsi tərdir. Tərləmə isti havada və ya ağır iş zamanı bədənin temperaturunun qalxmasının qarşısını alır. Əsasən sudan ibarət olan tərdə 1%-ə qədər natrium xlorid olur.

Əgər bütün dəri ifrazatı yalnız tərdən ibarət olsaydı, onda sabuna ehtiyac olmazdı. Amma bədənin bəzi sahələri həm də çoxlu miqdarda piy ifraz edir ki, bədənə iy verir. Bu iy hər bir insan üçün fərqlidir. Bakteriyalar bu piyləri emal etdikcə iy getdikcə xoşagəlməz olur. Odur ki, təmizliyi qorumaq bir neçə məqsəd daşıyır: xarici mənbələrdən dəriyə düşmüş çirkləri kənarlaşdırmaq, tərləmədən

sonra ayrılan piy ifrazatını yox etmək və bakteriyaların bu piyə düşməsinin qarşısını almaq. Amma həddən çox yuma da zərərlidir. Bu dərini yağlamaq üçün lazım olan piyi də kənarlaşdırır və dərinin qurumasına gətirib çıxarır. Nəticədə dərinin vəziyyəti pisləşə bilər.

Təmizləyici vasitələr çirk və piyləri həll etməklə dəridən kənarlaşdırır. Məsələn, çirk ammonyakın suda məhlulunda yaxşı həll olur. Ona görə də, o, mətbəxdə səmərəli təmizləyici maddədir. Amma ammoniakın qatı məhlulu insan dərisi üçün təhlükəlidir.

Təmiz su çirk və piyi həll etmir. Əgər siz sirkə (sirkə turşusunun suda məhlulu) ilə yağı salat hazırlayarkən qarışdırmısınızsa, onda bu problemlə tanışsınız. Bu qarışığı nə qədər istəyirsiniz qarışdırın, elə ki, qarışdırma dayandı, onlar yenidən ayrılırlar. Piy və su yumanı sabunsuz apardıqda qarışmır. Buna görə də çirki yalnız su ilə yumaq mümkün deyil.

Sabunun dərini təmizləməyə necə kömək etdiyini başa düşmək üçün həllolmanın molekulyar əsası ilə tanış olmaq lazımdır.

Suyun polyarlığı bir su molekulunun hidrogen atomunun qonşu su molekulunun oksigen atomu ilə hidrogen rabitəsi yaratması hesabına olur (şək.1).



Şəkil 1. Su molekulları arasında hidrogen rabitəsi.

Hidrogen əlaqəsi molekul daxilində oksigen atomunu hidrogen atomu ilə əlaqələndirən kovalent rabitəyə nisbətən zəif rabitədir. Amma bu əlaqələr digər su molekullarından yaranmış karkas daxilində kifayət qədər güclüdür. Əksinə, qeyri-polyar və ya az polyar yağ molekulları öz aralarında son dərəcə zəif qarşılıqlı təsirdə olurlar və belə strukturlar yaratmırlar. Su və qeyri-polyar maddə qarışdıqda hidrogen əlaqələri su molekullarını o qədər qüvvətli əlaqələndirir ki, qeyri-polyar molekullar ayrıca təbəqə əmələ gətirməklə ayrılır.

Bununla belə, bir çox maddələr suda həll olurlar. Nümunə kimi duz və

spirtin suda həll olmasını göstərmək mümkündür.

Müəllim qeyd edir ki, kimyada belə bir qayda var: “Oxşarlar biri-birində yaxşı həll olurlar”. O, həmçinin, göstərməlidir ki, suda polyar və ion birləşmələr, qeyri-polyar həllediciləridə isə qeyri-polyar maddələr həll olur. Qarşılıqlı təsir gücünə görə müqayisə həllolmanın açarıdır. Şagirdlər öyrənirlər ki, bəzi iri molekullar həm polyar, həm də qeyri-polyar həllediciləridə həll ola bilərlər.

Şagirdlər polyarlıq və həllolmanı daha yaxşı başa düşsünlər deyə müəllim onlara aşağıdakı müqayisələri aparmağı tapşırır:

1) Aşağıda verilən maddələrdən hansının ion, polyar və ya qeyri-polyar maddələr olduğunu qeyd edin. Polyarlıq yük və molekulun forması haqqında öz fikirlərinizi əsaslandırın.

a) Natrium hidroksid NaOH – sabun istehsalında istifadə olunur.

b) Dietil efiri $(CH_3CH_2)_2O$ – sənayedə həlledici kimi istifadə olunur.

c) Etilen qlikol $OHCH_2–CH_2OH$ – geniş istifadə olunan antifrizin əsas tərkib hissəsidir.

ç) Kalium nitrat $KNO_3$ – gübrədir.

2) Yağların (triqliseridlərin) və qlükozanın kimyəvi strukturlarını müqayisə edin. Onlardan hansı suda, hansı benzində həll olar? Nə üçün? Bu iki molekul arasında hansı fərqlər var?



Triqliserid



Qlükoza

3) Etanol $CH_3CH_2OH$ – suda həll olan üzvi birləşmədir. Onun həll olması böyük olmayan polyar –OH qrupunun olması ilə bağlıdır. Heyvan piyinin tərkibində olan xolesterin ($C_{27}H_{46}O$) (ürək xəstəlikləri törədir) –OH qrupuna malik olsa da həll olmur. Nə üçün? Sizin fikrinizcə, xolesterin qeyri-polyar

həllediciləurdə həll olarmı? Nə üçün?

4) Natrium laurilsulfat $CH_3(CH_2)_{11}OSO_3^-Na^+$ sintetik yuyucu maddədir. Necə fikirləşirsiniz, bu maddə suda həll olurmu? Yağda necə? Cavabınızı "oxşar maddələr biri-birində həll olur" qaydasına əsasən əsaslandırın.

Dəri üçün sabunlar və digər yuyucu maddələr (detergentlər) həllolma baxımından ikili xarakterli struktura malikdir. Şagirdlərə sabunların piylərdən və bitki yağlarından alınmasına dair məlumat verilir. Əksər detergentlər isə neft məhsulları əsasında sintez edilir.

Sabunlar və detergentlərdə molekulun bir sonluğu polyar, digəri isə qeyri-polyar olur. Məsələn, natrium stearatda uzun karbohidrogen zənciri suda deyil, yağda həll olur. Əksinə, molekulun əsas sonluğunda oksigen atomu mənfi yükə malikdir ki, o da suyun polyar molekulları ilə qarşılıqlı təsirdədir.



Natrium stearat

Beləliklə, natrium stearat molekulları və ona oxşar digər sabunlar eyni güclə həm yağ, həm də su molekulları ilə qarşılıqlı təsirdə olur. Bu, sabunlu suda piy (yağ) və çirki yumağa imkan verir. Uzun, nazik molekullar özünün suda həll olmayan hissələri ilə yağ və ya piy damcılarını əhatə edir və yüklənmiş hissələrini kənara istiqamətləndirir.

Indi əksər adamlar satışda olan sabun və təmizləyici vasitələrdən istifadə edirlər. XIX əsrdə isə çox vaxt sabunu özləri heyvan piyindən və qələvidən istifadə etməklə hazırlayırdılar. Qliseriltripalmitat qələvi ilə reaksiyaya girir və sabun – natrium palmitat əmələ gəlir. Odur ki, belə sabun reaksiyaya girməmiş qələviyə malik olur ki, o da dərini zədələyə bilər.






Dəri bədənin ətraf mühitlə toxunan sahəsidir. Şagirdlər bu barədə aşağıdakıları diqqətə çatdırırlar:

Dəri bizi mexaniki zədələrdən, ac bakteriyalardan qoruyur. O, bədənə temperaturu sabit saxlamaqda kömək edir. Biz ətraf mühit haqqında məlumatı da dəri vasitəsilə alırıq. Dəri həm də insan hisslərinin ötürülməsində iştirak edir. Insan dərisi 3 mm-ə qədər qalınlıqda olub, iki əsas təbəqəyə malikdir. Derma adlanan daxili təbəqə iki növ zülal liflərinə malikdir və onlar dərinin elastikliyini və möhkəmliyini təmin edir. Tər və piy vəziləri məhz bu təbəqədə yerləşirlər və axarları ilə yuxarı təbəqənin məsamələri ilə əlaqələnirlər. Dermanın bütün hüceyrələri canlıdır və qanla təmin olunmalıdır. Əgər dəri kəsildikdə qan gəlirsə, deməli, derma zədələnmişdir.

Dərinin dermasının hüceyrələri daim bölünür. Yeni əmələ gələn hüceyrələrdən bəziləri bu zaman xaricə itələnir və dərinin xarici təbəqəsi olan epidermisi əmələ gətirir. Hüceyrələr xarici təbəqəyə yaxınlaşdıqca onların nüvələri ölür, maye isə zülal sapları ilə əvəz olunur. Vəzilərin ifraz etdiyi piylər onların səthində mühafizə təbəqəsi yaradaraq dərinin yumşaqlığını qoruyub saxlayır və bədəndən suyun artıq miqdarda kənarlaşmasının qarşısını alır. Piy təbəqəsi zəif turş xassəlidir, belə ki, zülal efirləri əsasların təsirindən dağılır.

Yaşlı hüceyrələr daim dəri səthindən kiçik hüceyrələr şəklində qopur ki, bunu da biz hiss etmək qabiliyyətində deyilik. Başda qov epidermisin ölmüş hüceyrələrinin birləşməsidir və son dərəcə böyük dəri hissəcikləri kimi ayrılır. Bəzi adamlar külli miqdarda vaxt və pul sərf edirlər ki, qovu mikrob əleyhinə şampunla yox etsinlər. Qovun mikrobla heç bir əlaqəsi yoxdur. Qova qarşı ən yaxşı şampunlar elə maddələrə malikdirlər ki, onlar epidermisin hüceyrlərinin birləşməsinin qarşısını alır və onların ölmə sürətini azaldır.

Dərinin sağlamlığını qorumaq isə çox sadədir. Normal qidalanın, təmizliyi gözləyin, amma həddən çox cəhd etməyin. Əllərin son dərəcə intensiv yuyulması dərinin bütün piyini kənarlaşdırır, dərini qurudur və beləliklə də, onun zədələnməsinə səbəb olur. Həddən çox günəş vannası qəbul etməyin. Günəş vannası qəbul etməyə çox meyilli olan adamlar dəri xərçənginə daha çox hallarda

tutulurlar.

**İstifadə edilmiş ədəbiyyat:**

1. Абилова А.К., Ершова Т.С. Экологические свойства синтетических моющих средств. Сибирский торгово-экономический журнал. 2011,№12.
2. Вахнина О.Н. Моющие и чистящие средства. Екатеринбург, 2008.
3. Горшенко Л. Синтетические моющие средства //Конъюнктура товарных рынков. 2005, №4
4. Плетнев М.Ю. Косметико-гигиенические моющие средства. Иосква, Химия, 1990.

*А.М.Тагиева, М.Х.Маммадов, А.Б.Мирзаева*

**Важность обучения учеников о химии кожи тела**

**АННОТАЦИЯ**

Межпредметная связь усовершенствует процесс обучения, служит более глубокому усваиванию знаний. Одним из главных условий здоровой кожи является предотвращение осложнений, которые могут возникнуть при попадании бактерий с грязью из окружающей среды.

*A.M.Tagiyeva, M.X.Mammadov, A.B.Mirzayeva*

**The importance of teaching students about the chemistry of the body skin**

**ANNOTATION**

The article represents the ratio of the opinions of representatives of educational thought of the modern classroom, including chemistry lessons, their variety, structure, types and summarizes the requirements for a modern lesson in chemistry.

**Açar sözlər:** kimyanın tədrisi, interpretasiya, bilik, fənlərarası əlaqə, yağlar, sabun, sintetik yuyucu maddələr.

**Klöçevıe slova:** обучение химии, интерпретация, знание, межпредметные связи, масла, мыло, синтетические моющие средства.

**Keywords:** chemistry teaching, interpretation, knowledge, interdisciplinary communication, oil, soap, detergents.